Harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq həmişə həmkarlarından fərqlənib, uğur qazanıb, nüfuz sahibi olub. Şəki şəhər 4 saylı uşaq musiqi məktəbinin direktoru İbrahim Rəsulovdan bunun səbəbini soruşarkən çox məntiqli bir cavab verdi:



# Yetirmələrimizin sorağı

- İdarəetmədə bir qayda olaraq hər vaxt dörd prinsipə əsaslanmışam: planlaşdırma, işlərin təşkili, icraya nəzarət və hesabat. Təcrübə göstərir ki, təsadüfi uğur olmur. Hərgah olsa belə çox nadir hallarda, gödəkömürlü olur. Odur ki, görəcəyin işin planını əvvəlcədən cızmalı, təmsil etdiyin kollektivin məqsəd və məramı üçün bütün bacarığını səfərbər etməlisən...

Bu yerdə bir az haşiyə çıxıb müsahibimizin tərcümeyi-halından bəzi məqamları diqqətinizə çatdırmaq istəyirik.

## Şəki

Rəsulov İbrahim Allahyar oğlu 1959-cu ildə Şəkidə ziyalı ailəsində anadan olub. Uşaqlıqdan musiqiyə xüsusi marağı ilə seçilib. Ona görə də orta məktəbdə oxumaqla yanaşı musiqi məktəbini də bitirib. Sonra təhsilini Şəki musiqi texnikumunda davam etdirib. Beləcə, müəllimlik fəaliyyətinə başlayıb. Tar ixtisası üzrə əvvəlcə Beyləqanda, daha sonra Şəki 2 saylı Uşaq Musiqi Məktəbində çalışıb. Bu illər ərzində həmişə ürəyində bir arzu yaşadıb - ali təhsil almaq! Yenə də musiqiyə maraq öz sözünü deyib. Ü.Hacıbəyov adına Bakı Dövlət Konservatoriyasında oxuduğu illəri indi də unuda bilmir.

1987-ci ildə Şəkidə yeni yaradılan uşaq musiqi məktəbinə direktor təyin olunub. Burada nə az, nə çox - düz 14 il çalışıb. Hər şeyi sıfırdan başlayıb. Yalnız adı olan məktəbin maddi-texniki bazasını yaradıb, onu böyük bir məktəbə - 427 şagird və 112 müəllimdən ibarət işgüzar və mehriban kollektivə çevirib.

2001-ci ildə Şəki Şəhər Mədəniyyət Şöbəsinin müdiri vəzifəsinə irəli çəkilib. 2004-cü ilədək burada yüksək təşkilatçılıq nümunəsi göstərib, mədəniyyətimizi respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdə ləyaqətlə təmsil edib.

İ.Rəsulovun əmək fəaliyyətinin böyük bir hissəsi musiqi məktəblərinin rəhbərliyinə həsr olunub. Yuxarıda onun 3 saylı uşaq musiqi məktəbinə başçılıq etməsi barədə qeyd aparmışıq. 2004-cü ildə 5 saylı, 2005-ci ildə isə 4 saylı uşaq musiqi məktəbinin direktoru təyin olunub.



İbrahim müəllim deyir:

- 4 saylı məktəbə gələndə hər şey acınacaqlı vəziyyətdə idi. Təsəvvür edirsinizmi, sanitar qovşağı belə yox idi. Məktəb kollektivi və valideynləri bir yerə topladıq. Bütün imkanları götür-qoy etdik. Otaqların sayını artırdıq. Əsaslı təmir işi apardıq. Musiqi alətləri aldıq. Tədrisin keyfiyyətini yüksəltdik. Tezliklə uğurlar üzümüzə güldü. Nazirliyimizin 3 tərifnaməsini, 2 Fəxri Fərmanını və 1 şəhadətnaməsini aldıq.

Nailiyyətlərin qazanılmasında müəllimlərdən Sadiq Mustafayevin, Nüsrət Lətifovun, Sevil Rəsulovanın, Almaz Əmrahovanın, Xuraman Əhmədovanın, Abid Hümbətovun, Sevda Əliyevanın, Məlahət Məmmədovanın, Hamil Lətifovun, Elman Salmanovun, Faiq Məmmədovun, Səbuhi Hüseynovun və başqalarının xüsusi zəhmət payı var.



Keçən il məktəbimizin 30 yaşı tamam oldu. 1978-ci ildə 4 ixtisas üzrə 10 müəllim və 60 şagirdlə fəaliyyətə başlayan məktəbin kontingenti xeyli artıb. Hazırda burada 8 ixtisas üzrə 450 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 135 nəfər müəllim məşğul olur.

Fərəhli haldır ki, hər il 70 məzunumuzdan 25-30-u ali və orta ixtisas məktəblərinə qəbul olunur. İndi yetirmələrimizin sorağı dünyanın müxtəlif ölkələrindən gəlir...

● **Lalə HACIYEVA,**
*zona müxbirimiz*